

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 127 (21.788)

8 iyul 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” beynəlxalq konfransı keçirilib






İyulun 7-də “Naxçıvan” Universitetində “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” mövzusunda beynəlxalq konfransın plenar iclası keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” mövzusunda keçirilən beynəlxalq konfransın öz işinə başlaması münasibətilə təşkilatçılara təşəkkür etmiş, qonaqları salamlayaraq demişdir: Naxçıvan ən qədim dövrdən başlayaraq türk mədəniyyətini günümüzə qədər gətirib çıxarmışdır. Neolit, Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin nadir inciləri, beş min il bundan əvvəl yaradılan ilkin şəhər mədəniyyəti, insan düşüncəsinin ilk yazılı ifadəsi olan Gəmiqaya abidələri, milli varlığımızın ifadəsinə çevrilən “Kitabi-Dədə Qorqud” dastanı Naxçıvanda islam dini qəbul olunana qədərki mədəniyyətin nümunələridir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev də deyirdi: ***“Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır”.***

Ali Məclisin Sədri demişdir: 653-cü ildən sonra isə bu mədəniyyət islam mədəniyyəti ilə vəhdətdə inkişaf etmişdir. Çünki həmin tarixdən ərəblərlə bağlanmış müqavilə nəticəsində naxçıvanlılar könüllü olaraq islam dinini qəbul etmişlər. Bu müqavilə elmi, siyasi və tarixi baxımdan diqqəti cəlb edir. Dini etiqada görə təktanrıçı olan naxçıvanlılar Nuh peyğəmbərin davamçıları kimi də etiqad, adət-ənənə və mənəvi dəyərlər baxımından islam dininə yaxın idilər. Müqavilənin elmi və siyasi əhəmiyyəti onunla şərtlənir ki, ərəblər artıq müstəqil olan Naxçıvanın yerli idarəçiləri ilə müqavilə bağlamışdılar. Bu, həmin dövrdə Naxçıvanın başqa dövlətlərin tərkibində olmasını təkzib edən çox mühüm faktordur. Diqqət çəkən amillərdən biri də odur ki, bağlanmış müqavilə “naxçıvanlıların həyatına, əmlakına və şəhər divarlarının toxunulmazlığına təminat” vermişdir.

Qeyd olunmuşdur ki, Azərbaycanın Naxçıvan diyarında türk-islam mədəniyyəti on ikinci əsrdə özünün intibah mərhələsinə çatmışdır. Bu dövrdə yaşayıb-yaradan memar Əcəmi Əbubəkir oğlu Naxçıvaninin sənəti nəinki Azərbaycan, ümumilikdə Yaxın Şərq və islam memarlığında yeni bir məktəbin əsasını qoymuşdur. Son illər muxtar respublikada qeydə alınan dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidələrdən 70-ə yaxını bərpa olunmuşdur. Bu gün müstəqil Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da dini-mənəvi dəyərlərimizə hörmətlə yanaşılır. Min illər ərzində formalaşan tarixi-mədəni irsimizi, xüsusilə türk-islam mədəniyyəti ənənələrini davam etdirən naxçıvanlı memarlar yeni axtarışları, tapıntıları və nailiyyətləri ilə dəyərli sənət nümunələri yaradırlar. Müasir şəhərsalma işlərində türk-islam mədəniyyəti elementlərindən məqsədyönlü şəkildə istifadə olunur.

Ali Məclisin Sədri demişdir: Zaman keçdikcə Naxçıvanın zəngin tarixi-mədəni irsi onun türk-islam mədəniyyətinin mərkəzi kimi əhəmiyyətini daha da artırır. Bütün bunlar nəzərə alınaraq İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabrında Bakı şəhərində keçirilmiş altıncı konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 2 iyun tarixli Sərəncamı ilə yaradılmış Təşkilat Komitəsi tərəfindən keçirilən “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” beynəlxalq konfransı Naxçıvan Muxtar Respublikası ərazisindəki türk-islam mədəniyyəti abidələrinin öyrənilməsi və təbliğində yeni mərhələnin əsasını qoyacaqdır.

Ali Məclisin Sədri Naxçıvanın türk-islam mədəniyyəti abidələrinin öyrənilməsi ilə bağlı keçirilən beynəlxalq konfransı Azərbaycan və islam tarixşünaslığına mühüm töhfə kimi dəyərləndirmiş, konfransa öz işində uğurlar arzulamışdır.

Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı “Naxçıvanın türk-islam maddi-mədəniyyətinin təşəkkülünə dair: yeniliklər və ənənələr” mövzusunda çıxış edərək demişdir ki, son illər Naxçıvanda mindən artıq müxtəlif təyinatlı abidə qeydə alınıb, milli-mədəni irsimizi yaşadan əsərlər, xüsusilə “Naxçıvan abidələri ensiklopediyası” nəşr olunub. Muxtar respublika ərazisindəki abidələrin xeyli hissəsi müsəlman dövrü abidələridir. Türk-islam mədəniyyəti əsrlər boyu böyük türk dünyasının, eləcə də azərbaycanlıların inkişafına güclü təsir göstərən mühüm amil olub. Naxçıvanın islamı qəbul etmiş əhalisinin bu mədəniyyətin daşıyıcıları kimi çıxış etmələri regionun maddi-mənəvi həyatında da tədricən yeni dövrün, türk-islam mədəniyyəti dövrünün başlanmasına rəvac verib. İslamın qərarlaşma prosesinin başlandığı və nəhayət başa çatdığı zaman kəsiyinə aid abidələrin üzərindəki süjetlərdə əski türk inancları və ənənəvi dini təsəvvürləri ilə bağlı müxtəlif rəmzlər öz əksini tapmışdır. Sonrakı dövrün abidələrində isə yerli türk ideoloji ənənələrinin islam dəyərlərinə xas olan ənənələrlə qovuşduğu görünür. Bu mənada Naxçıvandakı türk-islam mədəniyyəti abidələrində rəmzləşən elementlər həm də milli ideologiyamızın əsas daşıyıcıları kimi qəbul olunmalıdır. Nailə Vəlixanlı Naxçıvanın tarixinə, abidələrinin tədqiq olunmasına və bərpasına göstərdiyi diqqətə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

“Naxçıvan məzar abidələrinin türk sənətində yeri” mövzusunda çıxış edən Ərzurum Universitetinin Sənətşünaslıq kafedrasının müdiri, professor Hüseyn Yurttaş demişdir ki, Naxçıvandakı məzarüstü abidələrlə Anadoludakı eyni formalı abidələr tikinti texnikası, memarlıq quruluşu və istifadə olunan materiallar baxımından bir-birinə yaxındır. Yusif Küseyir oğlu türbəsi ilə Ərzincandakı Məlik Qazi türbəsi, Möminə xatın türbəsi ilə Konyadakı Qılınc Arslan türbəsi, Gülüstan türbəsi ilə Kayseri, Niğdə, Ərzurum və Amasya türbələri, Qarabağlar türbəsi ilə Sivasdakı Güdük Minarə eynilik təşkil edir. Bu da bir daha təsdiq edir ki, memar Əcəmi tərəfindən əsası qoyulan Naxçıvan memarlıq məktəbi türk və islam dünyası memarlığının inkişafına mühüm təsir göstərmişdir.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin Abidələrin Bərpası Elmi-Tədqiqat Layihə İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Cəfər Qiyasi “Eldənizlərin paytaxtı Naxçıvan və Atabəylər Kompleksi” mövzusundakı çıxışında diqqətə çatdırmışdır ki, Naxçıvanın XII əsrdə Azərbaycan Atabəylərinin paytaxtı olması şəhərin memarlığının formalaşmasında mühüm rol oynamışdır. Tarixi qaynaqlar haqlı olaraq Naxçıvanın iri şəhərə çevrilməsini Atabəylərin – Eldənizlərin adı ilə bağlayır. Həmin dövrə aid müxtəlif tarixi əlyazmalarda da qeyd olunur ki, Naxçıvan məhsuldar torpaqları, bol yeraltı sərvətləri, yüksəkkeyfiyyətli sənətkarlıq istehsalı və çox əlverişli strateji mövqeyi ilə yaxşı tanınırdı və geniş uluslararası əlaqələrdə fəal iştirak edirdi. XII əsrdə Eldənizlər kimi qüdrətli bir dövlətin paytaxtı edilməsi bu şəhərdə artıq dayanıqlı əsası olan sənətlərin, xüsusən memarlığın inkişafına güclü təkan verdi. Bu gün Naxçıvanda tarixi abidələr bərpa və təmirlə yanaşı, tədqiq və təbliğ də olunur. “Naxçıvanın türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” beynəlxalq konfransı da bu məqsədə xidmət edir.

Plenar iclasda Təbriz Sənət Universitetinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Bəhram Acarlı “Naxçıvan və Marağa Memarlıq Məktəbinin abidələri” mövzusunda çıxış etmişdir. Qeyd olunmuşdur ki, Azərbaycan orta əsrlər dövründə İslam dünyasının ən zəngin və parlaq memarlıq irsini yaratdı. Bu dövrdə Azərbaycanın inkişaf etmiş şəhərlərindən olan Naxçıvanda, Təbrizdə və Marağada memarlıq sahəsində çoxlu möhtəşəm abidələrin yaradılması bütün Azərbaycanda memarlığın yüksək dərəcədə inkişaf etdiyini göstərir. Əcəmi Naxçıvani tərəfindən işlənib hazırlanmış kompozisiyalar və dekorativ üsullar ətraf yerlərdə ucaldılan xatirə abidələrinə də böyük təsir göstərmişdir. Naxçıvan memarlıq məktəbinin XII əsrə təsadüf edən yüksəlişi dövründə Marağada da memarlıq inkişaf edirdi. Tədqiqatçıların fikrincə, Marağa abidələri Azərbaycan memarlığının Naxçıvan məktəbinin ən mühüm xüsusiyyətlərini özündə əks etdirir. Bu mənada “Naxçıvan türk-islam mədəniyyəti abidələri: tarixdə və günümüzdə” beynəlxalq konfransı türk-islam mədəniyyəti abidələrinə, zəngin tariximizə verilən dəyərin ən yüksək ifadəsidir.

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev “Naxçıvanın türk-islam abidələri tarixi qaynaqlarda” mövzusunda çıxış edərək bildirmişdir ki, Naxçıvan diyarı dünya sivilizasiya mərkəzlərindən biri, türk-islam abidələri ilə zəngin bir ərazidir. Bu ərazidə yaşamış insanlar çoxsaylı tarix və mədəniyyət abidələri yaratmış, bunların bir qismi günümüzədək gəlib çatmışdır. Orta əsrlərdə və yeni dövrdə Azərbaycana, eləcə də Naxçıvana səfər edən bir sıra görkəmli səyyah və tədqiqatçıların əsərlərində, yol qeydlərində Naxçıvanın tarixi abidələri haqqında çox maraqlı və əvəzolunmaz məlumatlar vardır. Naxçıvanın türk-islam mədəniyyəti abidələri Naxçıvanın qədim tarixə, çoxəsrlik dövlətçilik ənənələrinə, görkəmli şəxsiyyətlərə, müxtəlif mədəniyyətlərin yarandığı bölgəyə, tarix-memarlıq abidələrinə malik olan bir diyar olduğunu, tarix, memarlıq və mədəniyyət abidələrinə yüksək diqqət və qayğı göstərildiyini bir daha təsdiq edir. İsmayıl Hacıyev tarixi irsimizə, türk-islam mədəniyyəti abidələrinin təmiri və bərpasına, həmçinin onların tədqiqinə göstərdiyi diqqət və qayğıya görə konfrans iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Naxçıvan Dövlət Televiziyasının hazırladığı “Naxçıvan: türk-islam mədəniyyəti abidələri” televiziya filminə baxış olmuşdur.

Beynəlxalq konfransın plenar iclası “nakhchivan.az” internet saytında canlı yayımlanmışdır.

Həmin gün beynəlxalq konfrans öz işini bölmə iclaslarında davam etdirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bert Skufs Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub.*

## Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bert Skufs Naxçıvan Dövlət Universitetində olub



Universitetlə tanışlıq zamanı səfir əvvəlcə İnformasiya-Kommunikasiya texnologiyaları mərkəzinə gələrək burada fəaliyyət göstərən kamera nəzarət sistemi, server və texniki təminat otaqlarının işi ilə yaxından tanış olub, Media mərkəzində Universitet Televiziyasında verilişlərin hazırlanması, onlayn dərslərin yazılması prosesini izləyib, çəkilişlərin aparıldığı studiyada olub.

Sonra universitetdə keçirilən görüşdə rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov ali təhsil ocağının strukturu, fakültələri, tədris olunan ixtisaslar və beynəlxalq əlaqələri haqqında geniş məlumat verib. Qeyd olunub ki, Naxçıvan Dövlət Universiteti TEMPUS və Erasmus+ beynəlxalq təhsil proqramları üzrə müxtəlif layihələrin fəal iştirakçılarından biridir və həmin layihələr çərçivəsində İspaniya, Avstriya, Polşa, Rumıniya, Çexiya və digər ölkələrin universitetləri ilə müəllim-tələbə mübadiləsi aparır. Hazırda universitetdə təhsil alan xarici tələbələrin sayı 250-yə yaxındır.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Seymur Talıbov qonağı salamlayıb, universitetin tədris imkanları və beynəlxalq əlaqələri haqqında məlumat verib.

Belçika Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bert Skufs Naxçıvanda Avropa standartlarına cavab verən və geniş beynəlxalq əlaqələrə malik universitetin fəaliyyət göstərməsini təhsil sahəsindəki böyük nailiyyət kimi dəyərləndirib, bunun ali təhsil ocaqları arasında əlaqələrin qurulması üçün geniş imkanlar açdığını bildirib.

Sonda xatirə şəkli çəkilib.

## Naxçıvanla tanışlıq Belçika səfirində xoş təəssürat yaradıb

Belçika Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bert Skufs Naxçıvana səfəri müddətində ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gələrək gül dəstələri qoyub, daha sonra Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Biznes Mərkəzinə gələn səfirə mərkəzin fəaliyyəti və muxtar respublikanın sosial-iqtisadi inkişaf göstəriciləri barədə məlumat verilib. Bildirilib ki, mərkəzdə muxtar respublikanın 96 istehsal və xidmət müəssisəsi tərəfindən istehsal edilən məhsullar nümayiş olunur. Bu gün muxtar respublikada 367 növdə məhsul istehsal edilir, 344 növdə məhsula olan tələbat tamamilə daxili imkanlar hesabına ödənilir.

Səfir Naxçıvan Günəş Elektrik Stansiyası ilə də tanış olub. Burada bildirilib ki, muxtar respublikada alternativ və bərpa olunan enerji mənbələri ilə bağlı mühüm layihələr həyata keçirilir. Belə layihələrdən biri də Günəş Elektrik Stansiyasıdır. Stansiyada işlər Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti ilə Belçika Krallığının "Soltech" şirkəti arasında bağlanmış müqavilə əsasında həyata keçirilib. Stansiyada 78 min 684 ədəd ən müasir günəş panelləri quraşdırılıb.

Diqqətə çatdırılıb ki, Naxçıvan Günəş Elektrik Stansiyasında il ərzində 30 milyon kilovat-saatdan çox elektrik enerjisi istehsal olunur. İsveçrənin "Ped" şirkəti ilə muxtar respublikanın Dövlət Energetika Xidməti arasında imzalanan müqaviləyə əsasən Günəş Elektrik Stansiyasında əlavə olaraq 7 min 700 ədəd günəş paneli quraşdırılacaq və şəbəkəyə qoşulacaq. Bu istiqamətdə görülən işlər yekunlaşdıqdan sonra stansiyasının istehsal gücü 30 milyon kilovat-saatdan 33 milyon kilovat-saata qədər artacaq. Layihə alternativ enerji mənbəyi kimi Naxçıvanın enerji təminatının tamamilə təbii ehtiyatlar hesabına ödənilməsində mühüm rol oynayacaq.

Naxçıvan Dövlət Tarix Muzeyinə gələn səfirə məlumat verilib ki, muzey 1924-cü ildə təşkil olunub, 1968-ci ildə dövlət statusu alıb. Naxçıvanın zəngin, qədim tarixi ilə bağlı 48 mindən çox eksponat Naxçıvan Dövlət Tarix Muzeyində qorunub saxlanılır.

Naxçıvan Dövlət Xalça Muzeyində olan qonağa bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan Dövlət Xalça Muzeyində 3 mindən çox eksponat mühafizə olunur, Naxçıvan xalçaçılıq sənətinin öyrənilməsi və təbliği istiqamətində tədbirlər görülür.

Qonaq "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olub.



İyulun 7-də Belçika Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bert Skufsun Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

"Şərq qapısı" qəzetinə açıqlamasında diplomat deyib: "Naxçıvana səfərimin məqsədi qədim diyar ilə yaxından tanış olmaq idi. Naxçıvan Biznes Mərkəzində olarkən blokadanın yaratdığı çətinliklərə baxmayaraq, muxtar respublikanın çox böyük inkişaf yolu keçdiyinin şahidi oldum. Qədim tarixə, mədəniyyətə malik olan Naxçıvan təbii sərvətlərlə zəngindir. Çox böyük strateji əhəmiyyətə malik olan muxtar respublikanın heyrətamiz təbiəti, havası, təmizliyi, insanların gülərüz və mehriban olması məndə xoş təəssürat oyatdı".

Bert Skufs Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Belçika Krallığı arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

**"Şərq qapısı"**

# NAXÇIVAN: bu torpağın bu günü də, dünəni də qürur doğurur




***Adətən, təyyarədə getdiyim yer, ölkə haqqında fikrə dalır, bir də səfər proqramını düşünürəm. Naxçıvana səfər zamanı da adətimə xilaf çıxmadım. Tanrı bu qədim diyarı sanki qürur, öyünc, qəhrəmanlıq rəmzi kimi yaradıb. Tarixin müxtəlif dövrləri canlanır yaddaşımda.***

Naxçıvan ərazisi ən qədim insan məskənlərindən biri olsa da, yazılı mənbələr antik və orta əsr tarixçi və coğrafiyaşünaslarına məxsusdur. Şəhər haqqında ilk yazılı məlumatı yəhudi tarixçisi və sərkərdəsi İosif Flavi və yunan coğrafiyaşünası Klavdi Ptolemey vermişlər. Ptolemeyin "Coğrafiya" əsərində şəhərin adı Naksuana kimi göstərilir.

Eramızdan əvvəl IX-VI əsrlərdə Naxçıvan Manna və Midiyanın, VI əsrin ortalarından Əhəmənilərin, IV əsrdən I əsrin ortalarınadək Kiçik Midiyanın – Atropatenanın, bizim eranın I əsrindən Qafqaz Albaniyasının tərkibinə daxil olmuşdur.

Sasanilər dövründə Naxçıvan hərbi-strateji mərkəz kimi sürətlə inkişaf etmişdir. Həmin dövrdə Naxçıvanda gümüş pul zərb olunurdu. 654-cü ildə Naxçıvan Ərəb xilafəti tərəfindən tutulur. İki il sonra Naxçıvan qalası yaxınlığında xilafət və Bizans qoşunları arasında ağır döyüşlərdən sonra Naxçıvan Bizansa qarşı mübarizədə güclü hərbi-inzibati mərkəzə çevrilir.

IX–X əsrlərdə Sacilər, Salarilər və Rəvvadilərin tərkibində olan Naxçıvanda X əsrin sonunda Naxçıvanşahlıq feodal dövləti yaranır.

Rəvvadilər dövlətinin hakimiyyətinə son qoyan səlcuq sultanı Alp Arslan XI əsrin əvvəllərində Naxçıvanı ələ keçirir.

XII əsrin ortalarında Azərbaycan Atabəylər dövlətinin paytaxtı olan Naxçıvan 1221-ci ildə monqolların, 1225-ci ildə Xarəzm Məhəmmədin oğlu Cəlaləddinin, 1230-cu illərdə Qızıl Ordanın hücumlarına məruz qalır, 1257-ci ildən Hülakülər dövlətinin tərkibinə daxil olur.

Bu torpaq, onun zəngin sərvətləri ahənrüba kimi yadelliləri özünə cəlb edirdi. Ağır döyüşlər, qətl-qarət əhalini gücdən salıb bu gözəl diyarı tənəzzülə sürükləsə də, Naxçıvanın müqavimət əzmini qırmaq mümkün olmurdu. Naxçıvanlıların 1387-1401-ci illərdə 14 il ərzində Əmir Teymurun qoşunlarına Əlincə qalasında qəhrəmanlıqla müqavimət göstərməsi bu fikri bir daha təsdiq edir.

...Stüardessanın səsi düşüncələrdən ayırır bizi, təyyarə hava limanına enməyə başlayır. İlluminatordan Naxçıvanın sərt, gözəl və əzəmətli təbiətinə baxıram, qəlbim qürur hissi ilə dolur. Bir fikir hakim kəsilir bütün varlığıma: bura qəhrəmanlar yurdudur, bura müqəddəs torpaqdır, bu torpağa ayaq basmazdan əvvəl hər kəs silkinib, bəd fikir və duyğulardan xilas olmalı, pak, ülvi, arzu və diləklərə köklənməlidir.

### *Ümummilli liderin abidəsini və muzeyi ziyarət*

Bu gün ölkəmizdə hamıya yaxşı bəllidir ki, Azərbaycanda müstəqil dövlət quruculuğuna gedən yolun əsası 1969-cu ildə görkəmli dövlət xadimi Heydər Əliyevin respublikanın rəhbəri seçilməsindən sonra qoyulub. Ulu öndər Azərbaycanın tərəqqi və inkişaf yolunu müdrikliklə müəyyənləşdirmiş, müstəqil dövlətçiliyimizin konseptual əsaslarını işləyib hazırlamış, milli ruhun, milli ideologiyanın yüksəlişinə böyük təkan vermişdir. Naxçıvanda öncə bu böyük insanın abidəsini ziyarət etməyi qərara aldıq.

Abidə 2006-cı ildə Heydər Əliyev Muzeyinin qarşısındakı meydanda ucaldılıb. Müəllifi Xalq rəssamı, görkəmli heykəltəraş, akademik Ömər Eldarovdur. Beşyaruslu qranit pyedestalın ortasında tünd qəhvəyi rəngə çalan kürsülük üzərində eyni rəngli qranitdən yonulmuş abidə əzəməti, ifadəliliyi və gözəlliyi ilə xüsusi fərqlənir. Heykəltəraş xalqımızın ümummilli lideri, böyük dövlət xadimi Heydər Əliyevin məğrur obrazını böyük məharətlə yaradıb. Abidənin hündürlüyü postamentlə birlikdə 10 metrdir.

Heydər Əliyev Muzeyi 1976-cı ildə Şərq və Qərb memarlığının sintezi əsasında inşa edilmiş binada yerləşir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 1999-cu il 16 fevral tarixli Sərəncamına əsasən yaradılmışdır.

Muzeyin binası və qarşısındakı meydan 2005-2006-cı illərdə yenidən qurularaq əsaslı təmir edilib və monumental xatirə ansamblına çevrilmişdir. Binanın mərkəzi hissəsinin arxitekturasında, fasadda və

*Ardı 3-cü səhifədə*





*Əvvəli 2-ci səhifədə*




pəncərə boşluğundakı şəbəkələrdə qədim Şərq və Əcəmi Naxçıvani ənənələrindən yaradıcılıqla istifadə olunmuşdur. 564 kvadratmetrlik ekspozisiya salonunda eksponatları yerləşdirmək üçün xüsusi şkaflar və vitrinlər yerləşdirilib. Ümummilli liderin əziz xatirəsinə dərin ehtiram və məhəbbətlə yaradılmış bu muzey, sözün həqiqi mənasında, ulu öndərin zəngin ictimai-siyasi və dövlətçilik fəaliyyətinə dair materialların toplanması, komplektləşdirilməsini, tədqiqi və təbliğini həyata keçirən müasir elmi-tədqiqat müəssisəsidir. Muzey görkəmli dövlət xadimi Heydər Əliyevin nəhəng nəzəri-siyasi irsi barədə dolğun təsəvvür yaradır.

Heydər Əliyev Muzeyini ziyarət etdikdən sonra Naxçıvan Dövlət Universitetində “Naxçıvanın turizm potensialının tanıdılmasında medianın rolu” mövzusunda keçirilən konfransda iştirak etdik. Məruzə və çıxışlardan bəlli oldu ki, Naxçıvan böyük turizm potensialına və müasir infrastruktura malikdir. Son illər xarici ölkələrdən turist axınının güclənməsi, işlənib hazırlanan proqramlar onu deməyə əsas verir ki, muxtar respublika tezliklə regionun mühüm turizm mərkəzinə çevriləcək.

Səfərin ilk günü “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi, Nuh Peyğəmbərin türbəsi, Naxçıvan Biznes Mərkəzi, Avtomobil Zavodu, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olduq.

## *Naxçıvan Duzdağ Fizioterapiya Mərkəzi*

Duzdağ Müalicə Kompleksi, sözün həqiqi mənasında, əsl möcüzədir. Bəziləri bu kompleksin duz mağaralarında yaradıldığını qeyd edirlər. Amma bu, mağara deyil, uzun illərdən bəri duz çıxarılan şaxtalardır. Süfrələrimizin bəzəyi, yeməklərimizə təkrarsız dad verən Naxçıvan duzu...

Yaxşı yadımdadır, bu duzu bədnam qonşularımız Naxçıvandan daşıyıb, İrəvanda emal edib qablaşdırır, sonra da İrəvan duzu adı ilə müxtəlif ölkələrə satırdılar. Bu gün o duza həsrət qalıb nankorlar. Sərhədin o tayına bir qorxu hissi hakim kəsilib. Sabah qarşısında qorxu hissi uşaqdan-böyüyə kimi hamını girinc edib, dərdə salıb. İmkanı olan tərk edib qaçır Ermənistandan. Əkdiklərini biçmək zamanı yetişib, haqqın cəzası ağır olur...

Hesablamalara görə, Duzdağın ehtiyatları 90 milyon tondan çoxdur. Buradan çıxarılan duz təkcə yüksək keyfiyyəti ilə deyil, həm də unikal şəfaverici, müalicəvi xüsusiyyətinə görə fərqlənir. Yer səthindən 110 metr dərinlikdə yerləşən müalicə kompleksində şaxtanın uzunluğu 300 metrdən artıqdır.

Duz şaxtası şəraitində tənəffüs orqanları xəstəliklərinin, o cümlədən bronxial-astmanın müalicəsinin mümkünlüyü ötən əsrin 40-cı illərində məlum olmuşdur. Mikroiqlimində natrium və xlor ionlarının üstünlük təşkil etdiyi duz şaxtalarında müalicə müəssisəsi Polşanın Krakov şəhərində 1968-ci ildən, Ukraynanın Ujqorod şəhəri yaxınlığındakı Solotvino qəsəbəsində 1972-ci ildən fəaliyyət göstərir.

Bu qədim diyarın hər qarışında insanı heyrətləndirən möcüzələrlə rastlaşırsan. Bənzərsiz gözəlliyə malik əzəmətli dağlar, zirvəsinə yalnız qartalların qona biləcəyi yalçın qayalar dünyaya meydan oxuyur sanki... Nələr baş verib burada, kimlər keçib bu yerlərdən, vərəq-vərəq o tarixi izləmək, canlandırmaq çətindən də çətindir bu gün. Zaman aldı, yer gizlədi. Bu günün o tayında, minilliklərin arxasında sirli-sehrli bir tarix yatır...

Batmaqda olan Günəşin zərrin şəfəqləri fonunda daha vüqarlı, daha əzəmətli görünür Naxçıvan təbiəti. Adama elə gəlir ki, bir az da maşın sürətlə getsə, dağdan aşmaqda olan Günəşə çatıb, ondan ayrılmadan yoluna davam edə bilərsən.

Gündüzlə gecənin mübarizəsi ikincinin xeyrinə yekunlaşmaqdadır. Əslində, bu, mübarizə deyil, kainatın



əzəli nizamıdır, sadəcə, təhvil-təslimdir. Gündüz yerini gecəyə verir, sabah yenidən qayıdacaq. Kainat yaranandan bəri bu qayda belədə davam edir.

Axşamın ala-toranında Duzdağ Fizioterapiya Mərkəzinə çatırıq. Bir neçə ay əvvəl burada olsam da, maraq yenə bürüyür məni, heç nəyi gözdən qaçırmaq istəmirəm. Duzdağ bu gün bizim nəzərimizdə yüksəkkeyfiyyətli duz mədəni, minlərlə xəstənin pənah yeri, şəfa ocağıdır. Yox, Duzdağ həm də tariximizin, mədəniyyətimizin bir parçasıdır, dünənimizə işıq tutan möcüzələr məkanıdır.

1870-ci illərdə mühəndis Koşkul və Bayer Duzdağ ərazisindən daş baltalar tapmışlar. Həmin baltalar hazırda Naxçıvan Dövlət Tarix Muzeyində, Tiflis və Sankt-Peterburq muzeylərində saxlanılır.

İnsanların mədəni-tarixi inkişafında mühüm mərhələ olan Daş dövründə əsas əmək alətləri və silah kimi daş alətlərdən istifadə olunmuşdur. Daş dövrü üç hissəyə bölünür. Deməli, həmin baltalar Paleolit, Mezolit və ya Neolit dövrünə aiddir, başqa sözlə, bu baltaların yaşı 1,5 milyon ilə yaxındır.

1879-cu ildə Duzdağda arxeoloji kəşfiyyat aparan Polyakov da buradan xeyli daş alət tapmışdır. 1967-ci ildə mədəndə baş verən uçqun zamanı aşkar edilən daş çəkiclərdən birinin ağırlığı 30 kiloqrama yaxındır.

Naxçıvanın şəhər kimi yaşının 5000 ildən artıq olması mübahisəsizdir. Təbii ki, Duzdağ mədənlərindən duzun çıxarılması bundan daha əvvələ, bəlkə də, ibtidai icma dövrünə gedib çıxır. Sonralar bu duz Böyük İpək Yolu üzərində mühüm mərkəzlərdən biri olan Naxçıvandan dünyanın neçə-neçə ölkəsinə aparılmış, zaman keçdikcə böyük şöhrət qazanmışdır.

Vasili Nikiforoviç Qriqoryev (1803-1876) tərəfindən hazırlanmış və 1833-cü ildə Sankt-Peterburqda çap olunmuş “Naxçıvan əyalətinin





statistik təsviri” kitabında Naxçıvanda duz ticarətinə dair maraqlı faktlar öz əksini tapıb. Rusiya Coğrafiya Cəmiyyətinin Qafqaz şöbəsinin 1854-cü ildə təşkil etdiyi müzakirələrdə də Naxçıvandakı duz mədənlərinin fəaliyyətinə ciddi diqqət yetirilməklə yanaşı, ümumiyyətlə, şəhərin formalaşmasında bu mədənlərin təsirinə də xüsusi yer ayrılıb.

Duzdağ yatağında şaxtalar maili qazma üsulu ilə işlənib, duz qazma-partlatma yolu ilə çıxarılıb. 1927-ci ildən ötən əsrin sonunadək duz sənaye üsulu ilə çıxarılsa da, avadanlıq müasir tələblərə cavab vermədiyindən məhsuldarlıq aşağı olub. Hazırda istehsal sexləri müasir avadanlıqla təchiz edilib, konveyer xətti tətbiq olunub. Məhsulun keyfiyyəti bütün tələblərə cavab verən laboratoriyada yoxlanılır. Duz kristal və üyüdülmüş halda istehlakçılara çatdırılır. Naxçıvan Filiz İdarəsi tərəfindən istehsal olunmuş xörək duzunun keyfiyyətinə bələd olmaq üçün təkcə bir fakta diqqət yetirmək kifayətdir: Naxçıvan duzu Madrid şəhərində nüfuzlu beynəlxalq sərgidə keyfiyyət göstəricilərinə görə qızıl medala layiq görülüb.

Naxçıvanlılar bildirirlər ki, Tanrı Duzdağı təkcə duzla yeməklərimizə dad-tam vermək üçün yaratmayıb. Duzdağ həm də şəfa ocağıdır, nadir sağlamlıq mərkəzidir. Dünyanın ən məşhur klinikalarında, tibb müəssisələrində adlı-sanlı həkimlərin müalicə edə bilmədiyi minlərlə xəstə məhz Naxçıvan Duzdağ Fizioterapiya Mərkəzinə gəldikdən sonra sağalıb, normal həyata qayıdıb.

Dünya Səhiyyə Təşkilatının məlumatına görə, planetin əhalisinin təqribən 10 faizi allergik xəstəliklərdən əziyyət çəkir. Bir çox xəstəliklərin, o cümlədən bronxial-astmanın duz şaxtasında müalicəsi (speleoterapiya) yüksək nəticə verir, xəstələr qısa müddət ərzində sağlamlığına qovuşurlar.

Duzdağ Fizioterapiya Mərkəzinin baş həkimi Zülfiyyə Həsənova söhbət zamanı bildirir ki, bu tip müalicə ocaqları arasında Naxçıvan Duzdağı ilə müqayisə olunacaq ikinci bir kompleks yoxdur. Məsələn, Ukraynada şaxta 206 metr dərinlikdə yerləşir və xəstələri yerin altına liftlə endirirlər. Bu səbəbdən xəstələrin təzyiqi birdən-birə dəyişir və halı pisləşir. Üstəgəl, Ukraynadakı şaxtalarda metan qazının toplanması həm partlayış təhlükəsi yaradır, həm də xəstələrin səhhətinə pis təsir göstərir. Orada rütubətin də çox olduğunu nəzərə alsaq, müalicənin effektindən danışmağa dəymək.

Naxçıvanda isə şaxta horizontal olduğuna görə müalicə kompleksinə giriş yerin səthindədir, xəstələr şaxtanın içərisinə doğru özləri yeriyərək gedirlər, rütubət normaldır, temperatur rejimi də nəzarətdə saxlanılır.

Kompleksin yeraltı şöbəsində ən müasir tələblərə uyğun palatalar yaradılmış, müasir avadanlıq və ləvazimatla təchiz olunmuşdur. Enerji kəsilərsə, ehtiyat enerji sistemi avtomatik işə düşdüyündən kompleksin fəaliyyəti normal axarda davam edir. Oksigen və duz mineralları ilə zəngin hava bronxial-astma və bu kimi xroniki xəstəliklərin müalicəsində əvəzedilməzdir.

Uşaqlar 12-15, böyüklər 14-18 gün ərzində burada sağlamlıqlarına qovuşub evlərinə qayıdırlar. Mərkəz il ərzində minlərlə xəstəyə tibbi xidmət göstərmək imkanına, xəstəxananın yerləşdiyi ərazi yüksək ekoloji təmizliyə malikdir.

Müalicə kompleksindən 2 kilometr məsafədə yerləşən “Duzdağ” oteli ən yüksək standartlara cavab verir. Oteldə qiymətlərin xeyli aşağı olması başqa ölkələrdən müalicə almağa gələnlər üçün çox sərfəlidir.

Yer səthindən 110 metr dərinlikdə, 9 işlənmiş ştrixdə yerləşən bu nadir müalicə kompleksi təkcə respublikamızda deyil, uzaq-yaxın ölkələrdə də böyük şöhrət qazanmışdır. Ötən il Rusiya, Qazaxıstan, Türkiyə, Gürcüstan, İran, Ukrayna, Litva, Kanada və digər ölkələrdən gələn xəstələr də Naxçıvan Duzdağ Fizioterapiya Mərkəzində müalicə kursu keçmişlər.

**(ardı var)**

**Həsən HƏSƏNOV**
***“Xalq qəzeti” nin baş redaktoru***
***5 iyul 2017-ci il***



*Gənc istedadlar*

# Rəssamın uğurlu sənət yolu

***Naxçıvan Muxtar Respublikasında peşəkar qadın rəssamların formalaşması, püxtələşməsi ölkəmizin müstəqillik dövrünə təsadüf edir. Bu dövrdə rəssamlıqda, əsasən, təsviri sənətdə öz yaradıcılıq qabiliyyətləri ilə uğur qazanan qadınların sayı xeyli artıb. Onu da qeyd edək ki, rəssamlığın bir sıra növlərində qadınların imzalarına rast gəlsək də, teatr janrı barədə bunu demək çətin idi. Naxçıvanda peşəkar teatr sənətinin yaşı 135-ə çatsa da, bu illər ərzində, daha dəqiqi Naxçıvan teatrının 130 illik yubileyinə qədər olan müddətdə bu qocaman sənət ocağının heç bir afişasında qadın rəssam imzasına rast gəlinməyib.***

Bu cəhətdən 2015-ci ili Naxçıvan teatrının tarixində dönüş ili hesab etmək olar. Belə ki, həmin ildə görkəmli dövlət xadimi, yazıçı-dramaturq Nəriman Nərimanovun 145 illiyi münasibətilə Naxçıvan Dövlət Musiqili Dram Teatrı da bu yubileyə öz töhfəsini təqdim etməyə hazırlaşırdı. Teatrda hazırlıq proseslərinə başlanılan "Nadanlıq" tamaşasının quruluşçu rejissoru, bu il Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüş Tofiq Seyidov yeni işinin bədii quruluşunu teatrın baş rəssamı, respublikanın Xalq rəssamı Hüseynqulu Əliyevə həvalə etməklə yanaşı, Naxçıvan Rəssamlar Birliyinin üzvü, Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət kafedrasının müəllimi Fizzə Quliyevanı ikinci rəssam olaraq hazırlıq prosesinə cəlb etdi.

Quruluşçu rejissorun belə bir yeniliyə təşəbbüs etməsinə – ilk dəfə olaraq teatra qadın rəssamın dəvət olunmasına səy göstərməsinə səbəb isə Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasında hazırlanan Nazim Hikmətin "Qəribə adam" (2012) və Esxilin "Zəncirlənmiş Prometey" (2013) tamaşalarında məhz Fizzə Quliyevanın quruluşçu rəssam kimi özünü göstərə bilməsi idi.

Naxçıvan Dövlət Musiqili Dram Teatrının baş rəssamı, eyni zamanda Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət kafedrasının müdiri Hüseynqulu Əliyev yeni tamaşada dekorasiya eskizlərini hazırlamağı istedadlı tələbəsinə həvalə edib. Fizzə xanım professional səhnədəki ilk təcrübəsinə məsuliyyətlə yanaşaraq gərgin işə başlayıb. Hazırladığı eskizlər hadisələrin baş verdiyi dövrü dolğunluğu ilə əks etdirdiyindən quruluşçu rejissor və baş rəssam tərəfindən razılıqla qəbul olunub. Həmin eskizlər əsasında teatrın sexlərində gedən hazırlanma proseslərində o özü də böyük həvəslə, yaxından və fəal iştirak edib.

Nəriman Nərimanovun yubileyi münasibətilə hazırlanan bu tamaşa qocaman teatrın səhnəsindən ilk dəfə təqdim olundu. Həmin gecə



yaradıcı heyətin ən çox həyəcan keçirən üzvü də, yəqin ki, elə Fizzə Quliyeva idi.

Tamaşadakı maraqlı aktyor oyunu ilə bərabər, səhnədə əks olunan Moskva Kremlinin şöhrətli Spassk qülləsinin başındakı beşguşəli ulduzdan səhnənin önünə doğru uzanan tor və qüllənin dördgözlü məşhur Kreml saatının hər tərəfində müxtəlif vaxtların göstərilməsi tamaşaçıda maraq və dərin təəssürat oyatdı. Dekorasiyadakı belə bir təqdimat keçmiş sovet imperiyasının yürütdüyü çoxüzlü siyasətin ifşasına xidmət edirdi.

Həmin il Fizzə Quliyevanın həyatında daha bir yaddaqalan əlamətdar hadisə baş verdi. Noyabr ayının 11-də ilk dəfə muxtar respublika Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda onun fərdi sərgisinin açılışı oldu. Burada istedadlı rəssamın təsviri sənətin bütün janrlarını əhatə edən 50-yə yaxın əsəri nümayiş etdirildi və tamaşaçılar, eyni zamanda həmkarları tərəfindən rəğbətlə qarşılandı.

Rəssam fırçası ilə təsviri sənətin, demək olar ki, bütün janrlarında – mənzərə, portret, natürmort, karikatura, qrafikada bu gün də böyük uğurla yeni-yeni əsərlər yaradaraq bərabər, teatr fəaliyyətini də davam etdirir. Belə ki, teatrın repertuarında olan Cəlil Məmmədquluzadənin "Çay dəstgahı" mənzum-alleqorik pyesinə quruluş vermək üçün dəvət olunan rejissor, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Ələkbər Qasımov tamaşanın bədii quruluşunu muxtar respublikanın qadın rəssamları arasında Azərbaycan Teatr Xadimləri İttifaqının ilk və yeganə üzvü Fizzə Quliyevaya həvalə edib. İstedadlı rəssam ona göstərilən etimadı layiqincə doğrultmaq üçün əsərin ideya və məzmununa, həmçinin rejissor yozumuna xidmət edən maraqlı səhnə və geyim eskizləri ərsəyə gətirib. İndi həmin eskizlər əsasında teatrın sexlərində hazırlıq prosesi davam etməkdədir. Yeni tamaşanın bu ilin sentyabr ayında, Dövlət Uşaq Teatrının 10-cu yubiley mövsümünün açılışında təqdim edilməsi nəzərdə tutulub.

Yaradıcı və pedaqoji fəaliyyətilə yanaşı, Fizzə Quliyeva elm sahəsində də özünü sınayaraq AMEA Naxçıvan Bölməsinin dissertantı kimi maraqlı və aktual bir mövzu üzərində də tədqiqatlarını davam etdirməkdədir. O, eyni zamanda muxtar respublika ərazisində yay aylarında həyata keçirilən arxeoloji qazıntılar üzrə beynəlxalq ekspedisiya qrupunun fəal üzvüdür.

Biz də Fizzə xanıma yeni-yeni yaradıcılıq uğurları, sənət sevincləri, sürəkli tamaşaçı alqışları, həmçinin apardığı tədqiqatların Naxçıvanın qədim tarixinə işıq tutmasını arzulayırıq.

**✍ Rauf KƏNGƏRLİ**

*Məktubun var, əsgər*

# Vətən sizə güvənir

*Salam!* Bu məktubu sənə sevgiylə, qürurla yazıram. İlk dəfədir ki, səndən bu qədər uzun müddətə ayrı qalıram. İlk göz ağrım, tək övladım olduğundan səni gözümdən kənara qoymazdım. Yadındadır, paytaxt şəhərə təhsil almağa getməyə qərar verdiyində müdaxilə etməsəm də, qəlbimdə incimişdim səndən. Ana ürəyidir, sonra yenə barışıb, qərarın nə olursa-olsun, dəstəkləmişdim səni.

Amma, gözümün nuru, səni kimsəyə etibar etməyən anan Vətənə etibar etdi. Həmişə özün deyirdin: Vətən anadır. Mən səni ikinci anana etibar etdim. Ona görə də gözüm arxada deyil. Əsgər anasıyam mən, sən Vətənin keşiyinə getdiyin gündən. Görürsən, necə qürurla səslənir: əsgər anası.

Sənin də gözün arxada qalmasın, mənim balam. Atan da, mən də yaxşıyıq, çox şükür. Düzdür, darıxıram, amma bu bir il təkcə sənin yox, eyni zamanda bizim üçün də sınaqdır. Övladdan, ata-anadan, həyatdan da şirindir Vətən. Atan da darıxır səninçün. Gedib-gəlib divardakı şəklinə baxır. Amma çox hiss etdirmir. Nə deyim, tanıdığın o üzdə soyuqqanlı görünən atan. Amma kənddə kimsə, – filankəsin oğlu düşmənlə üz-üzə sərhəddə xidmət edir, torpaqlarımızın keşiyindədir, – deyəndə qürurlandığını görsən, özün-özünlə fəxr edərsən. Qonşumuz Zeynəb xalan da tez-tez gəlib səni soruşur. Yeri-yurdu necədir, korluq çəkmir ki? – deyir. Şükür Allaha, oğlum xeyli razılıq edir, – deyirəm, onlar da nigarançılıqdan qurtarırlar.

Əziz balam, sənin üçün çox darıxsam da, ürəyim rahatdır. Gözümün ağı-qarası bircə balamı Vətənə əsgər yola salmışam. Qorxmaz ol, mənim balam! Vətən səni bir ömür bağrına basıbsa, onun üçün bir il xidmət nədir ki? Çətin və məsuliyyətli olmaqla yanaşı, eyni zamanda şərəflidir Vətənə xidmət. Hər gün dua edirəm. Tək sənə yox, bütün əsgər balalarıma. Deyirəm, İlahi, balalarımı çətinliklər qorxutmasın. Siz tək deyilsiniz. Mənim kimi neçə-neçə ana-bacının dualarındasınız siz. Tanrı sizi qorusun, Vətənin igid, qorxmaz, cəsur oğulları. Ordumuz günü-gündən güclənir. Xalqımızın sonsuz inamı, güvəni sizə ruh yüksəkliyi verir. Elə bunlara görə də səndən nigaran deyiləm.

Bilirəm, sən Vətənin uğrunda ölməkdən qorxmursan. Televiziyada şəhidlərlə bağlı verilişlər gedəndə gözün dola-dola tutqun səslə, eyni zamanda da məğrurcasına, – şəhidlər ölmür, – deyə-deyə evdə o baş-bu başa gedirdin. Biz də bilirik, şəhidlər ölmür. Amma bu Vətənin sənin kimi güclü, mərd oğullara ehtiyacı var. Buna görə də ölümə tələsmə, yaşamağa çalış. Yaşa ki, şəhidlərimizin qisasını ala biləsən. Yaşa ki, düşmən tapdağı altında olan torpaqlarımızın xilas olunmasında sən də iştirak edə biləsən. Yaşa ki, bayrağımızın Qarabağda dalğalanacağı tarixi günə şahidlik edə biləsən.

Gözlərindən öpürəm, mənim balam. Tanrı sizi qorusun!

***Hörmətlə: Həbibə BABAYEVA***
***Ordubad rayon Unus kənd sakini***

# Azərbaycan birinciliyində uğur qazanan naxçıvanlı atletlər mükafatlandırılıb

Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasında keçirilən tədbiri federasiyanın sədri Rövşən Məmmədov açaraq bildirib ki, bu gün ölkəmizdə, eləcə də muxtar diyarımızda idmanın inkişafına xüsusi diqqət yetirilir. Gənclərin idmanın istənilən sahəsi ilə məşğul olmaları üçün lazımi şərait yaradılır, muxtar respublikamızda fəaliyyət göstərən idman federasiyaları dövlətin gənc idmançılar üçün yaratdığı əlverişli şəraitdən lazımınca istifadə edir və nəticədə, idman sahəsində uğurlarımız ildən-ilə artır.

Tədbirdə çıxış edən federasiyanın sədr müavini İntiqam Rəhimov bu il iyunun 23-24-də keçirilən Azərbaycan birinciliyi barədə məlumat verib. Bildirib ki, Bakı şəhərində keçirilən yüngül atletika üzrə 1998-1999, 2002-2003-cü illər təvəllüdlü oğlan və qızlar arasında Azərbaycan birinciliyində Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının 12 nəfər yeniyetmədən və 3 məşqçi-müəllimdən ibarət yığma komandasının üzvləri 100-200, 400-800, 1500-3000 və 4x200 metr estafet yarışında öz qüvvələrini sınayıblar. Onlardan 4 nəfər birinci, 6 nəfər ikinci, 2 nəfər üçüncü, 4x200 metr estafet yarışında qızlardan ibarət komandamız isə ikinci yerə layiq görülüb. Qızlardan ibarət komandanın üzvləri istər fərdi, istərsə də komanda yarışında yüksək nəticə göstəriblər.

Sonda Azərbaycan birinciliyində yer tutmuş idmançılara Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının qiymətli hədiyyələri, yarışda iştirak edən digər idmançılara isə həvəsləndirici hədiyyələr təqdim olunub.

**Xəbərlər şöbəsi**

# Uşaqlar tarixi abidələri və muzeyləri ziyarət ediblər

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yay tətili günlərində sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə tədbirlər planı tərtib edilib. Tədbirlər planına uyğun olaraq uşaqların milli və mədəni irsin qorunub saxlandığı, təbliğ və nümayiş olunduğu mədəniyyət ocaqlarına, tarixi-memarlıq abidələrinə ekskursiyalarının təşkili nəzərdə tutulub.

İyulun 7-də sağlamlıq imkanları məhdud 30 uşaq Heydər Əliyev Muzeyini, Naxçıvan Dövlət Tarix Muzeyini, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksini ziyarət edib. Muzeylərdə uşaqlara milli dövlətçiliyimiz, tarixi-memarlıq abidələrimiz və tarixi şəxsiyyətlərimiz haqqında ətraflı məlumat verilib.

Tədbir uşaqlarda xoş ovqat yaradıb. Uşaqların muzey və tarixi-memarlıq abidələrinə ekskursiyaları davam edir.

***Naxçıvan Muxtar Respublikası***
***Əmək və Əhalinin Sosial Müdafiəsi***
***Nazirliyinin mətbuat xidməti***

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** *İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə hansı məsuliyyətə səbəb ola bilər?*

***Cavab:*** Ölkəmizdə ictimai münasibətlər, istehsal vasitələri və cəmiyyət inkişaf etdikcə elmi-texniki tərəqqi və elmi-texniki inkişaf mövcud qanunvericiliyə, o cümlədən cinayət qanunvericiliyinə də sirayət edir. Belə olan təqdirdə cinayət qanunvericiliyi də dövrün tələblərinə, informasiya texnologiyalarının inkişaf tempinə uyğun şəkildə redaktə edilərək təkmilləşdirilir. Müasir internet texnologiyalarının məhsulu olan şəbəkələr və sosial informasiya resurslarından istifadə zamanı qanunsuzluqlara yol verilməsi faktları nəzərə alınaraq Azərbaycan Respublikasının cinayət qanunvericiliyinə 29 noyabr 2016-cı il tarixli Qanunla internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə adlanan 148-1-ci maddə əlavə edilmişdir. Qanunla internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtanatma və ya təhqiretmə əməlləri cinayət əməli hesab edilir.

İnternet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yəni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatı gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar isə saxta istifadəçi adlar, profil və ya hesablar sayılır. İnternet informasiya ehtiyatında bu yolla kütləvi nümayiş etdirməklə böhtanatma və ya təhqiretmə əməlini törətmiş şəxs və ya şəxslər cinayət qanunvericiliyi ilə min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

### *İtmişdir*

Naxçıvan şəhəri, "10-cu" məhəllə, 32 ünvanında Novruzov Sucaxan Müseyib oğlunun adına olan MH-0051016 seriya nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

### *Bildiriş*

"Rəngarəng" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200811921) fəaliyyətini dayandırdığından ləğv olunur.

* * *

"Mövlan-1" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN-0200840711) fəaliyyətini dayandırdığından ləğv olunur.

**ŞƏRQ** *qapısı*
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1000. Sifariş № 552